**Bu qan yerdə qalmaz**

Goranboy rayonunun Aşağı Ağcakənd bölgəsində hər şəraiti olan Xocalı rayonunun inzibati mərkəzi formalaşır. "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na uyğun olaraq bu yerlərdə 500 ailəlik qəsəbələr salınır. Aşağı Ağcakənddə, Meşəli və Börü kəndlərində yüzlərlə yaşayış evi tikilib. Məktəblər, uşaq bağçaları, feldşer-mama məntəqələri, inzibati binalar inşa edilib. İşıq, su çəkilib, yollar sahmana salınıb.

Ötən ilin yekunlarına həsr olunmuş toplantıda xocalılara dövlət qayğısından geniş söhbət getdi. Görülən işlərdən minnətdarlıqla danışıldı. Bununla yanaşı ürək ağrısıyla qeyd olundu ki, xocalılılar gecə-gündüz öz doğma torpaqlarına qayıtmaq həsrətilə yaşayırlar.

Xocalı faciəsindən on yeddi il keçir.

Aylar, illər ötdükcə əsrin bu böyük faciəsinə, ermənilərin misli görünməmiş vəhşiliyinə dünya dövlətlərinin laqeydliyi daha kəskinliklə qəlbimizi göynədir. Uzun illər Xocalıda işləmişəm. İyirmi ilə yaxın Cəmilli kənd məktəbinə rəhbərlik etmişəm. Sonra təhsil şöbəsinin inspektoru, Kərkicahan qəsəbə sovetinin sədri işləmişəm. Neçə ildir ki, "Xocalının səsi" qəzetinin redaktoruyam. Hər gün məcburi köçkünlərlə görüşürəm. Onların həyat şəraiti, arzu və istəklərinə yaxından bələdəm.

Ulu öndər Heydər Əliyevin ənənəsinə uyğun olaraq ölkə başçısı İlham Əliyev tərəfindən məcburi köçkünlərin həyat şəraitinin daha da yaxşılaşdırılması üçün hər cür qayğı və kömək göstərilməsinə baxmayaraq, Xocalı faciəsinin ağrı-acısı ürəkləri göynədir. Bu qeydləri yazdıqca ötən günlər yenidən yada düşür. Xocalı faciəsi olmaya bilərdimi? Bəli, bu müdhiş qırğının qarşısını almaq mümkün idi. Əgər o dövrdə respublika rəhbərliyinin laqeydliyi olmasaydı, Xocalı salamat qala bilərdi. Rəngi saralmış gündəliyimi vərəqləyirəm.

1992-ci il 12 fevral: Prezidentə, Ali Sovetə, Nazirlər Sovetinə, AXC-yə vurulan saysız-hesabsız teleqramlar cavabsız qalır.

Mətbuat, televiziya susur. Qarabağın, əsasən Xocalının ağrılı günləri barədə ictimaiyyətə məlumat verilmir.

Xocalı vuruşur, özünü, torpağını müdafiə edir, ölkə rəhbərliyindən isə bir haray yoxdur.

13 fevral: Rus-erməni hərbçiləri silahsız dinc əhalini güllələbaran edir. Televiziya MK-nın mənasız, məzmunsuz qərarlarını, Prezidentin təmtəraqlı görüşlərini göstərir, Xocalıda isə mühasirə halqası get-gedə daralır.

15 fevral: Stepanakertdə (Xankəndidə) yerləşən rus alayı hərbi sursatı ermənilərə verib getmək istəyir. Daxili qoşun - Don diviziyası asayişi qoruyur, rus alayı isə azərbaycanlılar yaşayan kəndləri talan edib yandırır. Bu sahədə əsas rolu dördüncü ordu oynayır. Bu quduz dəstəyə kapitan Arutyunyan və Oqanyan başçılıq edirlər.

19 fevral: Rusiya Prezidenti Boris Yeltsinin rus qoşunlarının komandanı Şapoşnikov və Ermənistan prezidenti Levon Ter-Petrosyanla Moskvada məxfi görüşü keçirilir. Elə həmin görüşdə görünür, "Xocalı soyqırımı"nın ssenarisi hazırlanır. Bundan sonra Stepanakertdə 366-cı alayın zabitlərinə ABŞ dolları paylanır. Deyilənlərə görə, Xocalının işğalı üçün 10 milyon, Ağdamın zəbtinə isə 15 milyon rus pulu ayrılıb.

21 fevral: Mühasirə halqası daraldıqca Xocalıdan hər yana, "14", "90" gizli çağırışlarla həyəcan dolu xəbərlər göndərilir: "Bizi qırırlar, kömək edin!". O gərgin günlərdə Xocalı Rayon İcra Hakimiyyətinin başçısı olmuş Elman Məmmədov xatırlayır ki, "1992-ci il fevralın ikinci ongünlüyündə Bakıya gəldim. Üç gün çalışdım, bütün imkanlardan istifadə etdim, amma dövlət başçısı Ayaz Mütəllibovun qəbuluna düşə bilmədim. Onun köməkçisi Gürşad Zərbəliyevə dəfələrlə zəng vururdum, xahiş edirdim ki, kömək elə, yoxsa camaatımız qırılacaq. Gəlim vəziyyət barədə A.Mütəllibova xəbər verim. Gürşad isə mənə deyirdi ki, A.Mütəllibovun başı qarışıqdır, yanında adamlar var. Bir sözlə, məni qəbul etmədi, üzümü görmək istəmədi. Çarəsiz qalıb yenidən Xocalıya qayıtdım".

Ölkənin başsız başçıları sanki bilə-bilə hər şeyə göz yumurdular. Bütün ağırlığın ağrı-acısı

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

isə o zaman yerlərdə fəaliyyət göstərən vəzifə sahiblərinin üzərinə düşürdü. Qeyrətli, cəsur insanların cəhdlərinə baxmayaraq, müharibə alovu hər yanı bürüyürdü. 1991-ci ilin dekabrında Cəmilli və Meşəli kəndləri əldən getdi. Başda oturanlar ayılmadılar. Ayın sonunda Kərkicahan qəsəbəsi işğal olundu, bizimkilər yenə də susurdular. 1992-ci il fevralın 26-da erməni-rus qoşunları tərəfindən Xocalı darmadağın edildi. Bu vəhşilikdən havalanan ermənilər toy-bayram edirdilər.

Təkcə Kosalar sovetliyinin 6 kəndi qalırdı. Həmin kəndlər Yuxarı Qarabağın şah yüksəkliklərində yerləşirdi. O illərin canlı şahidi, hazırda Kosalar kənd icra nümayəndəsi işləyən Kərəm Əsgərov xatırlayır ki, Xocalının necə yandırıldığına ürək ağrısı ilə baxırdıq. Bizim döyüşçülər çalışırdılar ki, Çayqovuşan istiqamətindən Ballıca kəndinə, oradan isə Xocalıya köməyə getsinlər. Əfsuslar olsun ki, təpədən dırnağacan silahlanmış rus əsgərləri erməni cəlladlarını öz qanadları altına alıb bütün ərazini nəzarətdə saxlayırdılar. Həmin gecə qrad qurğusundan bir neçə dəfə atəş açsaq da Xocalıya kömək etmək istəyimiz ürəyimizdə qaldı.

1992-ci il mayın 8-də erməni-rus hərbi birləşmələri dörd istiqamətdən Kosalara hücuma keçdi. Canhəsən kəndindəki postlarımız mühasirəyə alınmışdı. Səhər saat 6-da əli silah tutanların hamısı qəfil hücuma keçərək mühasirə halqasını yardı və düşməni geri oturtdu. Səkkiz saat davam edən amansız döyüşdə altı nəfər həlak oldu, 23 nəfər yaralandı. Ölən ermənilərin meyitlərini topladıq ki, girov düşən xocalılarla dəyişək.

Bilavasitə ürəyin hökmü ilə meydana atılan qeyrətli oğullarımızın rəşadətini unutmaq olmur. Tabil Həsənov hər hücuma keçəndə Koroğlu kimi elə nərə çəkirdi ki, düşmən özünü itirirdi. Rasim Ağayev ağır yaralanmasına baxmayaraq, "Qarabağ şikəstəsi"ni oxuya-oxuya ön mövqeyə atıldı. Silahlı ordunun qarşısında tək-tük fədakar oğul nə edə bilərdi?

Şəhid atası Kərəm Əsgərov deyir ki, mayın 9-da döyüşə-döyüşə dağlara çəkildik. Azı 70 kilometrlik cəbhə xəttini göz bəbəyi kimi qoruyurduq. Gecə-gündüz çəkilən bütün əzab-əziyyət yiyəsizlik ucbatından uğursuz sonluqla başa çatırdı. Şuşa ilə əlaqəmiz tamamilə kəsildi. Böyük ümidlə biz oradan kömək gözləyirdik, gəlmədi. Sonradan məlum oldu ki, Şuşa da işğal edilib. Bizim kənddə qalmağımız daha mümkün deyildi. Əlsiz-ayaqsız qocaları, körpələri çıxarmağa başladıq. Yuxarı Qarabağı axırıncı tərk edən Kosalar kəndi oldu.

Xocalı soyqırımı XX əsrin ən böyük faciələrindən biridir. Bir gecənin içində 613 nəfər məhv edildi, 1275 nəfər dinc sakin girov götürüldü. Onlardan 150 nəfərinin taleyi hələ də bəlli deyil. Bu amansız faciə nəticəsində min nəfərdən artıq dinc sakin müxtəlif dərəcəli güllə yarası aldı. Qətlə yetirilənlərin 106 nəfəri qadın, 83 nəfəri azyaşlı uşaq, 70 nəfəri ahıl qocalar idi. Şikəst olanların 76 nəfəri yetkinlik yaşına çatmamış oğlan və qızlardır.

Vəhşi quldurların qansız əməllərinə baxın! Səkkiz ailə tamamilə məhv edilib. 25 uşaq hər iki valideynini, 130 nəfər isə valideynlərindən birini itirdi. Aparılan araşdırmalar göstərdi ki, şəhid olanlardan 56 nəfəri xüsusi qəddarlıqla öldürülmüş, diri-diri yandırılmış, başlarının dərisi soyulmuş, bədən əzaları kəsilmiş, gözləri çıxarılmış, hamilə qadınların qarnı süngü ilə deşik-deşik edilmişdir.

İnsanlıqda haqqı, payı olmayan erməni quldurlarının iç üzü bax belədir!

Bizi ən çox ağrıdan odur ki, o dövrdə kreslolarından möhkəm yapışaraq başda oturanlar, nəyin bahasına olursa-olsun, hakimiyyətə can atanlar xalqa vaxtında, düzgün məlumat vermədilər. Yalnız ulu öndər Heydər Əliyev hakimiyyətə qayıdandan sonra Xocalı faciəsi özünün əsil siyasi, hüquqi qiymətini aldı.

1994-cü il fevralın 24-də ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclisdə Xocalı məsələsi müzakirə olundu. Ulu öndərin sərəncamı ilə "Xocalı faciəsi günü" elan edildi. 1995-ci ildə soyqırımın ildönümü ərəfəsində Heydər Əliyev xocalılıları qəbul edərək onları diqqətlə dinlədi, bir çox müəmmalı məsələlərə aydınlıq gətirdi. Elə həmin vaxtdan da Azərbaycan hökuməti Xocalı soyqırımı haqqında həqiqətlərin olduğu kimi dünya dövlətlərinə, geniş ictimaiyyətə çatdırılması, bütün bunların əsl soyqırım kimi tanınması və işğal olunmuş torpaqların tezliklə azad edilməsi xəttini yeridir. Ulu öndər Heydər Əliyevin yolunu uğurla davam etdirən İlham Əliyevin müdrik siyasəti sayəsində son vaxtlarda bu sahədə xeyli irəliləyiş

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

duyulur. Xocalı soyqırımı haqqında dünyanın ayrı-ayrı ölkələrində müəyyən tədbirlər görülür. Ermənilərin xalqımıza qarşı olan bu qanlı cinayətini əsil soyqırımı faktı kimi etiraf edənlərin miqyası genişlənir.

Nahaq qan yerdə qalmaz, gec-tez həqiqət öz yerini tutacaq. Biz buna əminik.

**Qasım Qırxqızlı**
**"Xocalının səsi" qəzetinin redaktoru**

**Azərbaycan.-2009.-27 fevral.-S.4.**

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional